Azərbaycan Respublikası səhiyyə nazirinin müavini, Respublikanın baş dövlət sanitariya həkiminin 2020-ci il 11 avqust tarixli 04 nömrəli qərarı ilə **təsdiq edilmişdir**

# İctimai iaşə müəssisələrinin açıq hava sahələrində koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair

# METODİKİ GÖSTƏRİŞLƏR

## 1.Giriş

1. Bu sənəd koronavirus (COVID-19) pandemiyası dövründə insanların sıx toplaşmasının, xüsusən qapalı məkanlarda xəstəliyin yayılma intensivliyinə birbaşa təsiri nəzərə alınmaqla fəaliyyəti məhdudlaşdırılmış ictimai iaşə müəssisələrinin karantin rejimindən mərhələli çıxış dönəmində yalnız açıq hava sahələrinin fəaliyyətinin bərpa olunması ilə bağlı həm sahibkarlar, həmdə müştərilər tərəfindən əməl edilməsi vacib olan tələbləri müəyyən edir.

2. Bu sənəddə baş dövlət sanitariya həkiminin 2020-ci il 4 may tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının (covıd-19) profilaktikasına dair Metodiki Göstərişlər"də nəzərdə tutulan tələblər əsas götürülməklə ictimai iaşə müəssisələrinin açıq hava sahələrində fəaliyyətinə şamil edilir.

## 2. Bu göstərişlərin məqsədləri üçün aşağıdakılar təmin edilməlidir

2.1. işə başlamazdən əvvəl müəssisədə işləyənlərin hərarətinin ölçülməsi;

2.2. yetərli sayda tibbi maskaların və əlcəklərin təmin edilməsi, həmçinin birdəfəlik istifadə üçün salfetlərin müvafiq sahələrdə yerləşdirilməsi;

2.3. müştərilərin ictimai iaşə zonalarına yalnız maskalarla daxil olması, maskası olmayan şəxslərə girişdə maskaların təqdim edilməsi, qida qəbulu zamanı istisna olmaqla bütün digər vaxtlarda və masanı tərk etdikdə maskadan istifadəyə nəzarət edilməsi;

2.4. istifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbaların yerləşdirilməsi;

2.5. açıq hava sahələrindəoturacaqların ara məsafəsinin eyni masa arxasında 1 metrdən, masalar arası məsafənin isə 2 metrdən az olmaması;

2.6. hər bir masada spirttərkibli dezinfeksiyaedici məhlulun yerləşdirilməsi;

2.7. kondisioner və havalandırma sistemlərinin texniki baxışının vaxtında həyata keçirilməsini, ventilyatorlardan və sərinkeşlərdən istifadə edilməməsi;

2.8. ümumi istifadə təyinatlı qablaşdırılmalarda şəkər, duz, souslar və digər ədviyyatların verilməməsi, onların yalnız birdəfəlik qablaşdırmalarda təqdim edilməsi (əgər istifadə olunursa, hər istifadədən sonra dezinfeksiya edilməsi);

2.9. müəssisə tərəfindən açıq havada xidmət zamanı müştərilərə örtük (bürüncək) verilməsinin qadağan edilməsi;

2.10. hər müştəri istifadəsindən sonra salfet və süfrə kimi çamaşırların dəyişdirilməsi və yuyulması.

## 3. Təmizlik və dezinfeksiya işləri

3.1. Təmizlik-dezinfeksiya işləri məhsulların və sahələrin xüsusiyyətləri, təmizlik-dezinfeksiya qaydaları nəzərə alınmaqla və müxtəlif təmizlik vasitələrindən istifadə etməklə həyata keçirilir.

3.2. İş saatı ərzində mütəmadi olaraq işlək sahələrdə, iş saatlarından sonra isə bütün sahələrdə təmizlik- dezinfeksiya işləri məsul şəxsin nəzarəti altında həyata keçirilməli və əlavə olaraq ayda 1 dəfə açıq hava sahələrində dezinfeksiya tədbirləri müvafiq lisenziyası olan peşəkar qurumların xidmətlərindən istifadə etməklə həyata keçirilməlidir.

3.3. Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri:

3.3.1. masa və stulların səthləri (spirt tərkibli məhlul və ya digər);

3.3.2. pəncərələr və pəncərə altlıqları, tutacaqlar (spirt tərkibli məhlul və ya digər);

3.3.3. qapılar və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər).

## 4. Tibbi maskalardan ümumi istifadə qaydaları

4.1. Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır.

4.2. İstifadə zamanı maskanın ağızla təmasda olan hissəsinə toxunmaq olmaz.

4.3. Maska çıxarılan zaman müvafiq qaydaya əməl edilməlidir, yəni maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır.

4.4. Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır.

4.5. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir.

4.6. Birdəfəlik maskalardan təkrar istifadə edilməsi qəti qadağandır.